# YEVLAX: KÜR QOYNUNDA ECAZKAR ŞƏHƏR

**"Yevlax ölkəmizin coğrafi mərkəzidir, böyük və strateji mərkəzdir".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Ölkə iqtisadiyyatının sürətli və davamlı inkişafı, əhalinin rifah halının daha da yaxşılaşması, dövlət tərəfindən sosial və iqtisadi öhdəliklərinin yerinə yetirilməsi, infrastrukturun təkmilləşdirilməsi, yeni iş yerlərinin yaradılması nəticəsində işsizliyin və yoxsulluğun minimuma endirilməsi bir daha Azərbaycanımızın Cənubi Qafqazın lider dövlətinə çevrilməsinə əyani sübutdur. Respublikanın hər bir guşəsində tikinti, abadlıq-quruculuq işləri yüksək zövqlə və dizaynla aparılır, iri tikintilər, geniş parklar və bulvarlar salınaraq əhalinin istifadəsinə verilir. Bu baxımdan, Yevlax şəhərində də abadlıq və quruculuq işləri yüksək zövqlə, dizaynla və qədim el sənət incilərinə, ornamentinə uyğun aparılaraq şəhərə daha da gözəllik verir. Yevlaxın hamımızı sevindirən və heyrətə salan inkişafı, on dörd illik bir dövrdə aparılan genişmiqyaslı tikinti-quruculuq və abadlıq işləri barədə çox yazmışıq. Ölkə Prezidenti İlham Əliyevin respublikanın bölgələrinə, o cümlədən Yevlaxa olan diqqət və qayğısı, bu istiqamətdə imzaladığı fərman və sərəncamlar barədə ayrıca danışmaq lazımdır. Digər mühüm cəhət isə yerlərdə işin düzgün təşkili, təşkilat-idarəetmə, iş üslubu və metodlarının daim təkmilləşdirilməsi, iqtisadi, sosial və mədəni məsələlərin həllinə kompleks münasibətdir. Bəli, Azərbaycanın hər bir güşəsi sözün əsl mənasında cənnətə çevrilmişdir. Vaxtilə boş qalan boz torpaqlarda yaşıllıqlar salınır, sakinlərin istirahəti üçün yüksək şərait yaradılır.



## TİKİNTİ-QURAŞDIRMA, ABADLIQ SAHƏSİNDƏ UĞURLU ADDIMLAR ATILMIŞDIR

Diqqətinizi Azərbaycandan keçən, gündən-günə gözəlləşən ana Kürün abadlaşan sahillərindən, göz-könül oxşayan sahil parklarının möcüzələrinə cəlb etmək istərdim. Uzunluğu 1515 kilometr olan Kür çayı Qafqazın ən böyük çayı olmaqla, mənbəyini Türkiyənin Qars vilayətinin ərazisindəki, Qızıl Gədik dağının şimal-şərq yamacından, 2740 metr yüksəklikdən götürərək 3 dövlətin - Türkiyə, Gürcüstan və Azərbaycanın ərazisindən axaraq, Xəzər dənizinə tökülür. Azərbaycan ərazisindən keçən Kür çayının uzunluğu 906 kilometrdir. Möhtərəm Prezident cənab İlham Əliyev Yevlaxa səfəri zamanı Kür çayının sahilində salınan "Bulvar" istirahət parkına yüksək qiymət vermiş və demişdir ki, bura boş yerlər idi, buraya heç kim gəlmirdi, demək olar ki, sahil yox idi. İndi gözəl bir istirahət zonasıdır. Özü də Kürboyu gəzinti xüsusi zövq verir. Bizim həm Dənizkənarı, həm də çayboyu bulvarımız vardır. Çox güman ki, hələ uzanacaqdır. Ən müasir işıqlandırma sistemi yaradılmış, uşaqların əylənməsi üçün cürbəcür atraksionlarla təchiz olunmuşdur. İdmana həvəsi olanlar üçün futbol və voleybol meydançaları inşa olunmuş, füsunkar çimərlik zonası salınmışdır. Yaxınlığında yüksəkmərtəbəli, gözəl dizaynla inşa olunan beşulduzlu otel sakinlər tərəfdən "Kür sahilinin mirvarisi" adlanır. Artıq tamamlanma işləri gedir. Bu əsrarəngiz guşə yağış yağdıqdan sonra, göyqurşağının cazibədar rənglərini əks etdirən gözəlliklər ana Kürün möhtəşəmliyini daha da artırır, rövnəqləndirir, könül oxşayır. Ümumiyyətlə Kür çayının sahilboyu müasir bulvar kompleksləri inşa olunmaqdadır. Bəli, Yevlax böyüyür, gözəlləşir. Əhalinin mənalı istirahəti üçün ümumi sahəsi 8,2 hektar olan Kür çayının şəhərin ərazisindən keçən sağ sahil boyunca 2500 metr uzunluğunda əsrarəngiz təbiəti, təravətli görkəmi, maraqlı dizayn və milli elementləri ilə zəngin olan bulvar istirahət mərkəzi salınmışdır. Yevlax bulvarında yüksəkmərtəbəli, zövqlə və gözəl dizaynla yeni inşa edilən əzəmətli, bu bulvarı daha da rövnəqləndirən, dünya standartlarına uyğun 5 ulduzlu 7 mərtəbəli oteli "Kür sahilinin mirvarisi" adlandırırlar. Görülən hər bir iş günün tələblərinə, otel inşaatı mədəniyyətinə, yüksək dizayn və memarlıq üslubuna uyğunlaşdırılır. Pəncərələrinin Kür çayına açılması, otelin füsunkarlığına daha da gözəllik verir. Burada çalışan memarların ən böyük istəyi ondan ibarətdir ki, Yevlaxda yeganə 7 mərtəbəli bina olan bu otel binasının tikintisini müasir standartlar çərçivəsində aparıb qonaqların və bura yolu düşəcək turistlərin ixtiyarına verməkdir. Bu isə şəhərin turizm məkanı kimi tanınıb, məşhurlaşmasına öz töhfəsini verə bilər. Zaman keçəcək, Kür sahilində yaşıllıqlar və gül-çiçək içərisində tikilmiş bu yaraşıqlı 5 ulduzlu otel, əsrarəngiz bulvarın simasına daha da ürəkaçan cizgilər əlavə edəcək, hər bir turistin könlünü oxşayacaq. Əsrarəngiz gözəlliyi və təbiəti olan bu bulvarı ölkə başçısı yüksək qiymətləndirmişdir. "Bu bulvar artıq tarixdə qalacaqdır. İndi biz deyirik ki, Bakı bulvarı 102 il bundan əvvəl salınmışdır. Yevlax bulvarı isə yeni salınıbdır. Bu artıq tarixdə vardır. Siz bu tarixi bir yerdə qeyd edin, yazın ki, Yevlax bulvarı bu tarixdə yaradılıb. Yüz ildən sonra burada gəzəcək insanlar deyəcəklər ki, bizim tarixi bulvarımız vardır, yaşı 100 ildir. Tarix belə yaradılır, ölkələr belə inkişaf edir".




Bulvar istirahət zonasında 22 ədəd fəvvarə, şəlalə tikilmiş, 3 xidmət obyekti, geniş ana və uşaq otağı, yaraşıqlı uşaq əyləncə mərkəzi, 4 ədəd yeni standartlara uyğun karusel, rahat idman meydançaları yaradılmış, monitor quraşdırılmış, gözoxşayan çimərlik salınmışdır. Salahlı-Balçılı-Ağqırax-Varvara-Cırdaxan-Yevlax şəhərinə giriş kəndlərarası avtomobil yolu, Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun Mingəçevir-Aran qəsəbəsi hissəsi istifadəyə verilmişdir. Avtomobil yollarının istifadəyə verilməsi əhalisinin sayı 12 min nəfər olan 8 kəndin sosial-iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir. Varvara Balıqartırma və Yetişdirmə zavodu, Varvara Su elektrik stansiyası yenidən qurulmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Yevlax şəhərinə səfəri zamanı həmin obyektlərin açılışında iştirak etmişdir. Hazırda 12 saylı Ərazi Vergilər Departamentinin, 100 yerlik 2 mərtəbəli uşaq bağçasının binalarının, Kür çayı üzərində dəmir yol körpüsünün, Aran qəsəbəsində ailə sağlamlıq mərkəzinin tikintisi aparılır. Ümumi dəyəri 22,6 milyon manat olan rayonun 12 kəndində 28000 hektar sahənin meliorasiya işlərinin aparılmasına başlanılmışdır. 2017-ci ildə şəhərdə 28 binanın dam örtüklərinin, 4-nün isə fasadının əsaslı təmir olunması nəzərdə tutulmuşdur. Artıq 4 ədəd beşmərtəbəli, 1 ədəd üçmərtəbəli, 6 ədəd ikimərtəbəli, 1 ədəd birmərtəbəli, cəmi 12 ədəd yaşayış binasının dam örtükləri dəyişdirilmişdir. Heydər Əliyev prospekti 55 nömrəli 5 mərtəbəli binanın fasadında və eyvanlarda təmir işləri aparılmış, fasad üzlük daşı ilə üzlənmişdir. Yevlax şəhərinin Sadıqcan, Fətəli xan Xoyski, İlqar Dəmirov, Əmralı Quliyev, Rəsul Rəsulov, Nasir Mansurov, Mirzə Fətəli Axundov, Akif Xəlilov, Nəriman Nərimanov və digər küçələrində abadlıq işləri görülmüşdür. Ümumi uzunluğu 11500 metr, sahəsi 63250 kv.metr küçələrin avtomobil yollarına 14500 kubmetr çınqıl verilmişdir. Şəhərin Heydər Əliyev prospektinin 1700 metr hissəsinin 23800 kv.metrinə asfalt örtük salınmışdır. Heydər Əliyev prospekti ilə Bakı-Ələt-Qazax avtomobil yolunun kəsişməsindəki dairədə abadlıq işləri görülmüş, burada yenidənqurma işləri aparılmışdır. Aşağı Qarxun və Nemətabad körpələr evi-uşaq bağçalarında əsaslı təmir işləri aparılmışdır.



## İNFRASTRUKTUR YENİLƏŞDİRİLİR

Əhalinin içməli su ilə təminatında və çirkab, yağış sularının şəhərdən kənarlaşdırılmasında problemlər olmamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 fevral 2017-ci il tarixli Sərəncamına əsasən rayonun 12 kəndində əhalini ekoloji cəhətdən içməli su ilə təmin etmək məqsədilə modul tipli içməli su təmizləyici qurğular quraşdırılacaqdır. Hazırda rayonun kəndlərində su təmizləyici qurğuların quraşdırılması, bulaqların tikilməsi və kənddaxili su xətlərinin çəkilməsinə başlanılmışdır.

Şəhərdə və rayon ərazisində əhalinin və istehsalat sahələrinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunması uğurla həyata keçirilir. Qaraməmmədli, Salahlı, Balçılı, Nərimanabad və Varvara kəndlərində 254 ədəd köhnə dayaqlar yeni dəmir-beton dayaqlarla əvəz edilmişdir. Salahlı və Balçılı kəndlərində 5 ədəd komplekt transformator məntəqələri quraşdırılmışdır. Rayonun Havarlı, Hacıselli, Marzılı, Bəydili, Gülövşə, Əkşəm, Aşağı Salamabad, Yuxarı Salamabad, Yenicə, Əcəmi kəndlərində elektrik təsərrüfatının yenidən qurulması işləri aparılır. Həmin kəndlərdə 0, 4 kVa-luq elektrik verilişi hava xətlərinin 1676 ədəd dayaqları metal dayaqlarla, 26,5 km elektrik naqilləri "ÖİT" kabellərlə əvəz edilmişdir. 16 ədəd kompleks transformator məntəqələri quraşdırılmışdır. Həmin kəndlərə Mingəçevir yarımstansiyasından elektrik enerjisi ötürən 6 kVa-luq 14 və 54 nömrəli fiderlərin 1081 ədəd elektrik dayaqları dəyişdirilmiş, 28,8 km naqil yeni naqillərlə əvəz edilmişdir. Yevlax şəhərində və kəndlərdə ümumi abonentlərin 95 faizi təbii qaz ilə təmin olunmuşlar. Şəhər də daxil olmaqla 50 yaşayış məntəqəsindən 43-ü qazlaşdırılmışdır. 1810 poqonmetr müxtəlif diametrli borularla qaz xətləri təmir olunmuş, 3 ədəd yeni qaz tənzimləyiciləri quraşdırılmışdır. Aparılan tədbirlər nəticəsində qaz itkisi xeyli azalmışdır.

## TƏHSİL SAHƏSİNDƏ UĞURLAR ƏLDƏ OLUNMUŞDUR

Cənab Prezident tərəfindən ölkəmizdə təhsilə göstərilən qayğı, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, icbari təhsilin həyata keçirilməsi, şagirdlərə dərin bilik verilməsi, müəllim əməyinin qiymətləndirilməsi rayonumuzun təhsilində də öz əksini tapmışdır. 5 Oktyabr — Beynəlxalq Müəllimlər Günü münasibətilə Azərbaycan Respublikası Təhsil nazirinin əmri ilə şəhər 5 nömrəli tam orta məktəbin müəllimi Elza Əhmədova, şəhər 9 nömrəli tam orta məktəbin müəllimi Nuranə Rəhimova, Aran qəsəbə 1 nömrəli tam orta məktəbin müəllimi Kəmalə Cəbiri və Qaraoğlan kənd tam orta məktəbin direktoru Ağalar Həsənov Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşlar. Təhsil Nazirliyinin xətti ilə şəhər 4, 5 nömrəli tam və Bəydili kənd ibtidai məktəblərdə cari təmir işləri aparılmışdır. Hazırda modul tipli Marzılı kənd ibtidai məktəb binasında son tamamlama işləri davam edir. Rayonun ümumtəhsil məktəblərinin 1850 nəfər müəllimi müəllimlərin biliklərinin Diaqnostik Qiymətləndirilməsində iştirak etmiş, rayon üzrə orta bal 36,4 olmuşdur. Ötən dərs ilində şagirdlərin ali təhsil müəssisələrinə qəbulu yüksək olmuşdur. Orta məktəbi bitirən 1002 nəfərdən 495 nəfəri ali məktəblərə sənəd vermiş, 275 nəfər respublikanın, 21 nəfər xarici ölkələrin ali məktəblərinə qəbul olunmuşlar. Ali məktəblərə qəbul olunanlardan 9 nəfəri 600-dən, 39 nəfəri 500-dən çox bal toplamışdır. 600-dən çox bal toplayanlar şəhər 2, 5, 7, 9 nömrəli, Aran qəsəbə 2 nöməli və Qaramanlı kənd tam orta məktəblərin şagirdləri olmuşlar. Rayon üzrə ən yüksək nəticəni şəhər 5 nömrəli tam orta məktəbin şagirdi 681 bal toplamış Nigar Məmmədova göstərmişdir. Şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsi işi Şəhər İcra Hakimiyyətinin və Təhsil Şöbəsinin daima diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə həyata keçirilən birgə işin nəticəsidir ki, bu il C.Naxçıvanski adına hərbi liseyə ötən ilkindən 9 nəfər çox, 11 nəfər qəbul olmuşdur. Məzunlardan 8 nəfəri müxtəlif ali hərbi məktəblərə qəbul olunmuşlar. Şagirdlərin məktəbdənkənar təlim və tərbiyəsi istiqamətində də bir sıra uğurlar əldə olunmuşdur. Təhsil və Fövqəladə Hallar Nazirliyinin birgə keçirdiyi "Fövqəladə hallar uşaqların gözü ilə" mövzusunda keçirilən respublika müsabiqəsində Texniki Yaradıcılıq Mərkəzinin dərnək üzvləri: Şəhər 2 nömrəli tam orta məktəbin IX sinif şagirdi Mətləb Alıyevin hazırladığı model I yerə, şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Sübhan Hüseynovun modeli III yerə layiq görülmüşdür. Hər iki şagird Təhsil Nazirliyinin və Fövqəladə Hallar Nazirliyinin Fəxri fərmanı və qiymətli hədiyyəsi ilə təltif olunmuşdur.



## SƏHİYYƏ SAHƏSİNDƏ XİDMƏT ÜRƏKAÇANDIR

Ölkə əhalisinə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, səhiyyə müəssisələrinin ən müasir avadanlıqlarla təchiz edilməsi istiqamətində möhtərəm Prezidentin həyata keçirdiyi uğurlu siyasət Yevlax səhiyyəsində də öz əksini tapmışdır. Pilot layihə kimi İcbari Tibbi Sığortaya keçidlə əlaqədar Rayon Mərkəzi Xəstəxanasında bir sıra işlər görülmüşdür. Hazırda 5 Ailə Sağlamlıq Mərkəzində, Rayon Mərkəzi Xəstəxanası və Ağciyər xəstəlikləri xəstəxanasında 157 həkim, 394 orta tibb işçisi əhalinin sağlamlığının qayğısına qalır. 9 ay ərzində xəstəxanaya 2465 nəfər xəstə qəbul olunmuşdur ki, onlardan 540 nəfəri üzərində cərrahiyyə əməliyyatı aparılmışdır. Hesabat dövründə 141877 nəfər ambulator tibbi müayinə üçün tibb müəssisələrinə müraciət etmişdir. 7966 nəfərə təcili tibbi yardım göstərilmişdir. Oktyabr ayının 1-dən başlayaraq İcbari Tibbi Sığorta Agentliyi tərəfindən şəhərdə və 4 kəndin Ailə Sağlamlıq Mərkəzlərində Bakı şəhərindən gəlmiş həkimlər vasitəsilə bir sıra xəstəliklər üzrə əhalinin müayinəsinə başlanmışdır. Müayinə oktyabr, noyabr və dekabr aylarını əhatə edir.

## GƏNCLƏR SİYASƏTİ, MƏDƏNİYYƏT VƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ DİQQƏT MƏRKƏZİNDƏDİR

Şəhər Mədəniyyət Mərkəzinin hazırladığı tədbirlər rayon əhalisi tərəfindən həmişə rəğbətlə qarşılanır. Bayram və əlamətdar tarixlərdə mədəniyyət işçiləri, özfəaliyyət kollektivləri maraqlı konsert proqramları ilə çıxışlar etmişlər. Bəşir Səfəroğlu adına Xalq Teatrının və Kukla teatrının hərbi vətənpərvərlik mövzularında hazırladıqları tamaşalara minlərlə məktəbli baxmışdır. Bu ilin avqust ayında Qəbələ rayonunda keçirilən Beşinci Beynəlxalq Mürəbbə Festivalında mədəniyyət işçiləri iştirak etmiş, III yerə layiq görülərək diplom və bürünc medalla təltif olunmuşlar. Azərbaycan Respublikası Prezidentinin gənclər siyasəti istiqamətində həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, gənclər ölkədə gedən proseslərdə yaxından iştirak edir və bəhrələnirlər. Gənclər siyasətinin səmərəliyinin artırılması, vətənpərvərlik ruhunun yüksəldilməsi, iqtisadi fəallığın artırılması, sağlamlıqlarının möhkəmləndirilməsi işini daha da yaxşılaşdırmaq məqsədilə ölkə başçısının 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" "Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının icrasını təmin etmək məqsədilə Şəhər İcra Hakimiyyəti başçısının 21 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə Yevlax Şəhər İcra Hakimiyyətinin Tədbirlər Planı təsdiq edilmiş və icrasına başlanılmışdır. 9 ay ərzində Şəhər Gənclər və İdman İdarəsi tərəfindən gənclər siyasəti üzrə 30, bədən tərbiyəsi və idman sahəsi üzrə 19 tədbir keçirilmiş, bu tədbirlərdə 2493 nəfər yeniyetmə və gənc iştirak etmişdir. Bəli, bu gün Yevlax uğurlu yoldadır, rayonun təkcə siması deyil, sakinlərin həyat tərzi, sosial-iqtisadi vəziyyəti dəyişmişdir. Firavanlıq, əmin-amanlıq hökm sürür. Qədirbilən yevlaxlılar bunu hər gün, hər saat, hər an hiss edir və dəyərləndirirlər.




**Zabit XƏLİLOV,**
**"Respublika".**






